**UOT 1(091)** **Səh. (94-106)**
**DOİ: https://doi.org/10.59849/2219-7370.2025.32.94**

# SƏMƏD MƏNSURUN MİLLİ MAARİFÇİLİK, FƏLSƏFİ ROMANTİZM VƏ İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ

**Faiq Ələkbərli,**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
"Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi" şöbəsinin müdiri
e-mail: faikalekperov@mail.ru
http://orcid.org/0000-0002-8865-568x

**Xülasə**

Məqalədə Azərbaycan Türk mütəfəkkiri Səməd Mənsurun milli maarifçilik, fəlsəfi romantizm və ictimai-siyasi görüşləri təhlil olunmuşdur. Burada göstərilir ki, S.Mənsurun yaradıcılığında real həyatı təsvir edən yazıları ilə yanaşı, romantik duyğuları təşkil edən əsərləri də olmuşdur. Onun fəlsəfi romantizmi millətin oyanışı, vətənin azadlığı ilə bağlı olduğu halda, real həyatdan götürülmüş satirik şeirləri, felyetonları isə milli maarifçiliklə səsləşmişdir. Mənsurun milli maarifçiliyi və fəlsəfi romantizmi özündə əks etdirən dünyagörüşünün zəngin, özünəməxsus olması şübhəsizdir. O, dünyanı və onda yaşayanları yalnız maddi-fiziki anlamda deyil, eyni zamanda mənəvi-psixoloji olaraq da görüb, bütün bunları dəyərləndirməyə çalışmışdır. Hər bir xalqın maarifçiliyi nə qədər bəşəri olursa-olsun, burada milli ruhda öz əksini tapır. Mənsurun maarifçiliyindəki millilik onun türklüyündə, Türk dünyagörüşünə bağlılıqda büruzə vermişdi. İlk baxışda, onun "rənglər" fəlsəfəsinin dünyaya bağlılıq məsələsində bəlli dərəcədə aqnostik xarakter daşısa da, ancaq bütövlükdə həqiqətçilik, həyat fəlsəfəsi də özünü ortaya qoymaqdadır. S.Mənsurun ictimai-siyasi görüşlərində isə islamçılıq, türkçülük, Azərbaycan türkçülüyü, "proletar mədəniyyət", erməni terrorizmi kimi məsələlər təhlil olunmuşdur. S.Mənsur yaxşı görürdü ki, kommunist quruluşlu Sovet Rusiyasl ilə çarlıq Rusiyası arasında mahiyyətcə fərq yoxdur. Çünki hər ikisi imperiya xislətli olub xalqları müstəmləkə halında idarə edirdi. Xüsusən də, Türk-İslam xalqlarına münasibət hər iki imperiya daha amansız olmuş, bundan da ən çox zərər çəkən millətlərdən biri Azərbaycan xalqı olmuşdur.

**Açar sözlər:** milli maarifçilik, fəlsəfi romantizm, "rəmglərin fəlsəfəsi", islamçılıq, türkçülük, Azərbaycan türkçülüyü, "proletar mədəniyyət", erməni terrorizmi

# SAMAD MANSUR'S NATIONAL ENLIGHTENMENT, PHILOSOPHICAL ROMANTICISM AND SOCIO-POLITICAL VIEWS

**Faig Alakbarli**
PhD, assos. prof.,
Head of the Department "The history of philosophical thought and modern philosophy of the Turkic peoples ",
the Institute of Philosophy and Sociology of ANAS
e-mail: faikalekperov@mail.ru
http://orcid.org/0000-0002-8865-568x

## Summary

The article analyzes the national enlightenment, philosophical romanticism and socio-political views of the Azerbaijani Turkish thinker Samad Mansur. It is shown that in addition to his writings describing real life, S. Mansur's works also contained works that embodied romantic feelings. While his philosophical romanticism was related to the awakening of the nation and the freedom of the homeland, his satirical poems and feuilletons taken from real life resonated with national enlightenment. There is no doubt that Mansur's worldview, which reflected national enlightenment and philosophical romanticism was rich and unique. He saw the world and those living in it not only in a material-physical sense, but also in a spiritual-psychological sense, and tried to evaluate all this. No matter how humane the enlightenment of each people is, it is reflected in the national spirit. The nationalism in Mansur's enlightenment was manifested in his Turkishness and commitment to the Turkish worldview. At first glance, his philosophy of "colors" is clearly agnostic in terms of its connection to the world, but overall, realism and philosophy of life also reveal themselves. In S. Mansur's socio-political views, issues such as Islamism, Turkism, Azerbaijani Turkism, "proletarian culture", and Armenian terrorism were analyzed. S. Mansur saw clearly that there was no essential difference between the communist-structured Soviet Russia and Tsarist Russia. Because both were imperial in nature and ruled the peoples as colonies. In particular, both empires were more ruthless in their attitude towards the Turkic-Islamic peoples, and one of the nations that suffered the most from this was the Azerbaijani people.

**Key words:** national enlightenment, philosophical romanticism, "philosophy of symbols", Islamism, Turkism, Azerbaijani Turkism, "proletarian culture", Armenian terrorism

# НАЦИОНАЛЬНОЕ ПРОСВЕЩЕНИЕ САМЕДА МАНСУРА, ФИЛОСОФСКИЙ РОМАНТИЗМ И ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ САМЕДА МАНСУРА

**Фаик Алекперли,**
д.ф.ф., доцент,
заведующий отделом «История философской мысли и современной философии тюркских народов»
Института Философии и Социологии НАНА
e-mail: faikalekperov@mail.ru
http://orcid.org/0000-0002-8865-568x

**Аннотация**

В статье анализируются национальное просветительство, философский романтизм и общественно-политические взгляды, одного из выдающихся представителей азербайджанской поэзии Самеда Мансура. В творчестве С. Мансура, помимо произведений, описывающих реальную жизнь, были произведения, выражавшие романтические чувства. Если его философский романтизм был связан с пробуждением нации и свободой родины, то его сатирические стихи и фельетоны, взятые из реальной жизни, перекликались с идеями национального просвещения. Несомненно мировоззрение Мансура, отражающее национальное просветительство и философский романтизм, богато и неповторимо. Поэт видел мир и его обитателей не только в материально-физическом смысле, но и в духовно-психологическом смысле. Просвещение каждой нации, отражается в национальном духе. Вопросы национальной свободы, национальной идентичности родного языка являются основными чертами творчества Самеда Мансура. На первый взгляд его предположение о том, что «все есть **цвет**» носит агностический характер, но в целом в нем так же проявляются его реализм и философия жизни. На общественно-политических встречах С. Мансура анализировались такие вопросы, как исламизм, тюркизм, азербайджанский тюркизм, «пролетарская культура», армянский терроризм. С. Мансур ясно видел, что между коммунистической Советской Россией и царской Россией нет принципиальной разницы, потому что обе страны были империями, по своей природе, и правили народами как колониями. В отношении к тюрко-исламским народам в обеих империях проводилась беспощадная политика и больше всего пострадал от этого - азербайджанский народ.

**Ключевые слова:** национальное просвещение, философский романтизм, «философия символов», исламизм, тюркизм, азербайджанский тюркизм, «пролетарская культура», армянский терроризм

## GİRİŞ

Milli maarifçiliyin və fəlsəfi romantizmin tanınmış nümayəndələrindən Azərbaycan Türk mütəfəkkiri Səməd Mənsur Kazımov (1879-1927) 1879-cu ildə Bakıda anadan olmuş, on yaşında İçərişəhərin Hamamçılar məscidində Molla Səttar və Molla Ağababanın yanında farscanı, ərəb əlifbasını, Quran surələrini öyrənməyə başlasa da, onun bu təhsili uzun çəkməmişdir. Atası Hacı Əhməd onu öz ilə bərabər Qacarlar dövlətinin Təngəbun şəhərinə aparmış, o, üç ilə yaxın burada yaşamalı olmuşdur (5, s. 17).

S.Mənsur 1891-ci ildən etibarən tanınmış Azərbaycan maarifçiləri Həbib bəy Mah-

mudbəyov, Sultan Məcid Qənizadənin fəaliyyət göstərdiyi Rus-Türk məktəbində təhsilini davam etdirmişdir. 1895-ci ildə həmin məktəbi bitirən Mənsur həm kontorların birində işə düzəlmişdir. 1897-1900-cü illərdə Ağabala Quliyev adlı tacirin dükanında işləyən Mənsur 1900-cü illərdə isə Rəsulov qardaşlarının, Musa Nağıyevin idarələrində çalışmışdır. O, 1910-cu ildə "Səfa" cəmiyyətinin üzvü olmuş, teatr işlərində fəal iştirak etmişdir. Bu dövrdə nəşr olunan bir çox qəzet-jurnallarla ("Molla Nəsrəddin", "Tuti", "Bəsirət" və b.) əməkdaşlıq edən Mənsur bəzi qəzetlərin redaktoru vəzifəsində də çalışmışdır (6, s.314).

1911-ci ildən Balabəy Aşurovun idarəsində mühasib kimi çalışmağa başlayan S.Mənsur 1917-ci ilə kimi burada xidmət etmişdir. O, 1917-ci ildə bütün var-dövlətini toplayaraq "Turan" mətbəəsini qurmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə də yaradıcılığına davam etmiş, milli dövlətin quruculuğundakı problemlərlə bağlı bir sıra əsərlər yazmışdır. 1919-cu uldə "Şeypur" adlı satirik məcmuənin naşiri və baş yazarı olmuşdur (7, s.6).

27 aprel faciəsindən sonra Səməd Mənsurun yaradıcılığında müəyyən məyusluq duyulmaqdadır. Cümhuriyyət nisgili ilə yaşayan Mənsur 1925-ci ildə yaradılmış "Azərbaycan ədəbiyyatı cəmiyyəti"nin təftiş komissiyasının üzvü olmuşdur. Həyatının son illərində Azərbaycan SSR XKS-də ümumi idarə müdiri vəzifəsində çalışan Mənsur, 1927-ci ilin yanvarın 3-də Bakıda vəfat etmişdir (11, s.14).

Onun əsas əsərləri aşağıdakılardır: "Milli nəğmə", "Həpsi rəngdir", "Gülməlidir", "Millət rəislərinə", "Maarif", "Dərviş", "Mükafat", "Ziyalılarımız", "Övladıma vəsiyyətlərim" və b.

**Milli maarifçilik və fəlsəfi romantizm.**

Səməd Mənsurun yaradıcılığında real həyatı təsvir edən yazıları ilə yanaşı, romantik duyğuları təşkil edən əsərləri də olmuşdur. Onun romantizmi millətin oyanışı, vətənin azadlığı ilə bağlı olduğu halda, real həyatdan götürülmüş satirik şeirləri, felyetonları isə milli maarifçiliklə səsləşmişdir (8, s.20-21). O, milli maarifçiliyə aid "Qələmdir" şeirində qələmin istənilən bir cəmiyyətin həyatında oynadığı mühüm rolu göstərməyə çalışmışdır. Onun fikrincə, qələm yalnız kamil bir savad, təhsil almaqla bağlı deyil, həmçinin insanların xəyallarını ifadə edən, zülmətdə işıq saçan bir qüvvədir. O, yazırdı:

*Əbnayi-bəşər feyzi-qələmdən olu fayiz,*
*Bəxş eyləyən afaqə füyuzat qələmdir.*
*Təqrir qılan dideyi-nasuti olursa,*
*Gər məskən ona çeşmeyi-zülmat qələmdir.*
*Bişübhə qələm şəşəəyi-qəlbi-bəşərdir,*
*İnsanlar üçün fəxri-mübahat qələmdir.*
*Çün tərbiyeyi-növi-bəşərdir ona möhtac,*
*Vazeh bu ki, ümumi-ədəbiyyat qələmdir.*
*Ayati-ilahidən imiş xilqəti, həqqa, -*
*Kim, qüdrəti-xəllaq üçün isbat qələmdir*
*(9, s.19-20).*

"Qələmdir"dən bir neçə il sonra şair satirik məzmunlu, lakin ruhunda lirik romantika olan "Qələmim" qəzəlini yazmışdır:

*Sinəm atəşkədə, birparça şərərdir qələmim!*
*Mənbəyi-büxl ürəyim, aləti-şərdir qələmim!*
*Təkcə birşairi-bivahiməvü pürhünərəm,*
*Min oxa, süngüyə, şəmşirə dəgərdir qələmim.*
*Kəndimi "xadimi-millət" deyə öysəm, yaraşar,*
*Rəhnümayi-rəhi-əbnayi-bəşərdir qələmim.*
*El bilir mən nəyəm artıq, nə üçün gizlədəyim,*
*Dərdisər ümmət üçün, xalqa zərərdir qələmim...*
*Al oxu şeirimi, yansın cigərin, eylə həsəd,*
*Söz deyil yazdığı ki, dürrü gühərdir qələmim!*
*(9, s.62).*

Eyni zamanda, Mənsur bir növ "Qələmdir"in davamı olaraq yazdığı "Söz" şeirində də milli maarifçiliyə aid xüsusiyyətləri ifadə etmiş, milli ideyaları təbliğ etmişdir. Onun bu şeirindəki sözün əhəmiyyəti ilə bağlı düşüncələri böyük Türk mütəfəkkir-filosofu Məhəmməd Füzulinin "Söz" qəzəli ilə səsləşməkdədir. Belə ki, Füzuli sözün qüdrətini ilahiləşdirdiyi halda, Mənsur sözün cəmiyyətin maariflənməsində, milli ruhun oyanmasında, ümumilikdə insanlığa xidmət etməsindəki rolunu qeyd etmişdir:

*Bir sədəf qədər qəlb danışır düşvar söz,*
*Əqldir xurşidi-rəxşan, pərtövi-ənvar söz.*
*Sözdür rizqi-nəfs üçün əsbabi-sülh alati-cəng,*
*Qəlbi-məcruhun şəfası tiği-cövhərdar söz.*
*Rəhməti-xəllaqə nayil söz qananlardır fəqət,*
*Əql olan başlarda cənnət, təntəhul-ənhar söz.*
*Natiq öz nitqində izhar eyləyir idrakını,*

*Çünki hissü qəlb təşxisindədir meyar söz.*
*Sözlə aləm tapdı xilqət, sözlə qəlb oldu şühud,*
*Cümlə əsrari-nihanı eylədi izhar söz.*
*Aləmi-lahutdən Cibriltək eylər nüzul,*
*Səmi-nasuti qılar hər ləhzə bəhrələnmiş söz.*
*Bu düri-pürqiym短ti halilə istemal qıl,*
*Ta kəsafətli qərəzlə olmaya murdar söz.*
*Söz fünununda məharətsiz gərək etsin sükut,*
*Həm müxərəbbdir könül mülkünə, həm memar söz.*
*Söz eşit, Mənsur, ta təkmil edə idrakını,*
*Zərreyi-xaki qılar əlmasi-qiymətdar söz*
*(9, s.20).*

Göründüyü kimi, S.Mənsur sözü yalnız ilahiləşdirmir, onun həm də toplumun həyatındakı rolunu görür, dəyərini önə çəkir. Burada önəmli olan cəmiyyətin maariflənərək milli, dini və insani kimliyini dərk etməsidir. O, S.Ə.Şirvaniyə yazdığı bir nəzirəsində də diqqəti böyük mütəfəkkirin maarifçilik yolunda çəkdiyi əziyyətlərə çəkmiş, bu yolun müqəddəsliyindən söz açmışdır:

*Olmuş əknun Bisütunu-ömrü çapmaq pişəmiz,*
*Vəsli-Şirini-əməldir müttəsil əndişəmiz.*
*Uydu dil ifriteyi-dövrani-dun təzvirinə,*
*Parə-parə qıldı fərqi-arizunu tişəmiz.*
*Tökdü tufani-dənaət şaxü bərgi-millət,*
*Tışarıya düşmüş səlamət torpağından rişəmiz.*
*Kişvəri-dil cəngəlistani-bəlavü xövfdir –*
*Kim, olubdur canavər xeylinə məskən bişəmiz.*
*Bir də qəflət badəsin töksək cəhalət camına,*
*Lənü nifrət daşlarından parələnsin şişəmiz*
*(9, s.22).*

Milli dil və milli məktəb məsələlərinə yaradıcılığında xüsusi yer verən tanınmış Türk mütəfəkkiri İsmayıl bəy Qaspıralının “Dildə, işdə, fikirdə birlik” ideyasına qatılırdı: “Sonra anladım ki, bu sözlər “Tərcüman”ın otuz illik dərdidir. Bu qoca qəzet bu sözləri deməkdən ağzı köprüyüb. Hələ bu vaxta kimi, yəni otuz il müddətində bu sözlər heç olmazsa qəzetəçilərə də kar etməyibdir. Hər qəzetənin özünəməxsus bir neçə dili olduğunu heç görməyiniz yoxdur” (9, s.159). Onun fikrincə, ana dilində danışmağı nöqsan sayanlara cəmiyyətdə yer olmamalıdır. Eyni zamanda, o, milli məktəblərin yaradılmasını millətin gələcəyində mühüm amil kimi qiymətləndirir və Türk dilində milli dərsliklərin yazılmasını vacib hesab edirdi (9, s.162). O yazırdı ki, başqa millətlərin varlıları, qədrbilənləri milli məktəblər açıb milli dərsliklər tərtib etdiklər halda, müsəlman milyonçularının əksəriyyəti pullarını ya özlərinə, ya da ən yaxşı halda savab qazanmaq üçün məscidə xərcləyirlər.

S.Mənsurun milli maarifçiliyində romantizm daha çox öz əksini “Həpsi rəngdir” şeirində tapmışdır. O, yazırdı:

*Uyma, ey dil, xəlqdə yoxdur sədaqət, rəngdir,*
*Məscidü meyxanə rəng, eyşü ibadət rəngdir,*
*Mey riya, məşuqə ğəşş, hüsnü vəcahət rəngdir,*
*Rəngdir hər dürlü matəm, hər məsərrət rəngdir,*
*Anla, ey əbnayi-xilqət, cümlə xilqət rəngdir.*

*Görmədim bir zərri-xalis buteyi-nasutdə,*
*Mənəvi min ləkə gördüm ləldə, yaqutdə,*
*Biqərəz insan olur görmək fəqət tabutdə,*
*Bilməzəm varmı sədaqət aləmi-lahutdə,*
*Azma, fikrim, cümlə ecazü kəramət rəngdir.*

*Hər kəsin Cibrili kəndi qəlbidir, vicdanıdır,*
*Var isə insafı şəxsin dinidir, imanıdır,*
*Bədnihad insanların öz nəfsi, öz şeytanıdır,*
*Lövhi-qəlbi arifin ayatıdır, Quranıdır,*
*Mabəqi övhamdır, şərü təriqət rəngdir.*

*Bir zaman vardı ki, mən həmfikir idim zöhhad ilə,*
*Sonra gördüm fərqi yoxmuş zahidin cəllad ilə,*
*Dedim: əyyaş olmalı, ta gün keçə mötad ilə,*
*Cümlə eyşü nuşi gördüm müxtəlif fəryad ilə,*
*Anladım ki, zöhdü təqva, eyşü işrət rəngdir.*

*Qıl təsəvvür bir daha şairlərin xülyasını,*
*Aşiqi-zarın başındda seyr qıl sövdasını,*
*Qəbri aç, göstər ona Şirinini, Leylasını,*
*Bir ayılsın da, düşünsün gördüyü röyasını,*
*“Bax”, deyir “həqqi bütün eşqü məhəbbət rəngdir”.*

*Tapmadım aləmdə bir həmdəm ki olsun biriya,*
*Görmədim heç kəsdə bir niyyət qərəzdən maəda,*
*Küllən əbnayi-bəşər öz nəfsinə olmuş fəda,*
*Nəfsi uğrunda görürsə hər bəla, hər macəra,*
*“Məslək”ə isnad edər, məslək, dəyanət rəngdir.*

*Bilmədim nəyçinmiş aləm, bunca da yəsü ələm,*
*Zövrəqi-ömrün mühiti vərtəban, dəryayi-qəm,*
*Böylə halda kimsədən bihudədir ummaq kərəm,*
*Hər gələn bulmaq dilər öz nəfsinə asudə dəm,*
*Arxalanmam kimsəyə, ülfət, rəfaqət rəngdir.*

*İndi ki mümkün deyil aləmdə olmaq kamyab,*
*Ey gözüm qurbanı, saqi, ver genə sağər şərab,*
*Ver genə sağər şərab, ey saqiyi-alicənab,*
*Bəlkə badənlə edə Mənsur rahət iktisab,*
*Yoxsa, bu aləmdə yoxdur istirahət, rəngdir*
*(9, s.35-36).*

Bu əsərində Mənsur dünyanın faniliyindən, varlığı ilə yoxluğunun nisbliyindən, insanlar üçün həyatın, yaşamın sadəcə "rənglər"dən ibarət olduğunu iddia etmişdir. İnsanlar öz nəfsləri, çıxarları üçün cilddən-cildə girir, bəzən çox mərhəmətli, bəzən də çox qəddar, yeri gələndə çox sadəlövh, yeri gələndə isə çox hiyləgər olurlar. Mənsura görə, bütün bunlar "rəng" olub, insanların hərəkət və davranışları da "rənglər"dən ibarətdir. Deməli, onun "rənglər fəlsəfəsi" aqnostizmlə, yəni dünyanın, materiyanın varlığının əslində bir heç olması müddəası ilə uzlaşmaqdadır. Görünür, bundan irəli gələrək həm 1910-cu illərdə, həm də Sovetlər Birliyi dövründə Mənsuru bədbinlikdə, tərkidünyalıqda ittiham etmişlər (12, s.10).

Səməd Mənsurun "Seçilmiş əsərləri"nin "İzahlar və şərhlər"ində göstərilir ki, "Hansı bir türk şairi isə "Həpsi rəngdir" şeirinə tənqidi bir şeir yazmış, S.Mənsur da ona cavab olaraq "Gülməlidir"ni qələmə almışdır" (9, s.225). Buradan məlum olur ki, "rənglər" fəlsəfəsinə görə Mənsuru tənqid edən "hansı bir türk şairi"nə görə, dünyanı və orada yaşayan insanları yalnız "rənglər"dən ibarət görmək doğru deyildir. O, "təzə cavan"a cavab verirdi ki, dünya, məşhər, ruh, ulduzlar, xoşbəxtlik, kədər, acı, şirin və sairənin hamısı rəngdir:

*Mən dedim "rəng", yenə rəngi-mükərrər deyirəm,*
*Rəngdir ərzü səma, bərzəxü məhşər deyirəm,*
*Rəngdir ruhü bədən, məsnədü çənbər deyirəm,*
*Duraraq cümleyi-afaqə bərabər deyirəm:*
*Etirazın mənə, ey təzə cavan, gülməlidir!*

*Tairi-fikrim ilə göyləri gəzdim yeksər,*
*Ta görüm ki nə imiş şəmsü kəvakibü qəmər,*
*Parlayır dideyi-əcubə kimi min əxtər,*
*Hərə yıldız arayır bəxtinə, həp ondan əsər,*
*Gözləyir, mənzərəsi etdi məni zirü zəbər,*
*Nöh fələkdən hanı bir namil nişan, gülməlidir.*

*Parçalar gördüm uçur hər tərəfə sərgərdan,*
*Bilmək olmaz belə tedadını milyan-milyan,*
*Hamı biheysü şüur etmədə daim dövran,*
*Ədəmi-nərmü nizam əqlimi qılmış heyran,*
*Nə demək Əqrəbü Cövza, o həmin, ya Sərətan,*
*Vəhmdir həpsi xəyalat, inan, gülməlidir.*

*Göyü, əflakı burax, ərzdən et əzmi-kəlam,*
*Bu nədir fırlanıyor ortada top kimi müdam,*
*Milyon illər yürüyür, ləmhə də tutmaz aram,*
*Milyon illər edəcəkdir yenə süğlükdə dəvam,*
*Neyçün, aya, nəyə lazım bu təkapu, bu xüram?*
*Əqlin olsun, necə gör bu dəvəran gülməlidir!*

*Parça bir cismi-müdəvvərdə doğmuş insan,*
*Bir taqım gəlmədədir, bir taqım ifnayə rəvan,*
*O gələnlər, yaşayanlar gedəni görməz, aman!*
*Bu nə qəflət? Səbəbi rəngdir, ey adəmiyan!*
*Rəng qoymuş bu kiçik şeyləri həp sərgərdan,*
*Hirsü sövda buna heç verməz aman, gülməlidir!*

*Görə bildinmi bu aləmdə sədaqətdən əsər?*
*Kimdə gördün? Nə zaman? Ver bizə də bari xəbər!*
*Müstəiddirmi sanırsan şərəfə, sidqə bəşər?*
*Hansı bir qüvə bunu qılmış ona müstəhzər?*
*Bəlkə mən səhvdəyəm, səhvimi vazeh göstər,*
*Yoxsa, bu səndəki hiddət, xəfəqan gülməlidir.*

*Bu nikbinlik, bu təcahül, bu ğəram ağlamalı,*
*Xalq təhrihinə manedi, müdam ağlamalı!*
*Hamı məmnundur özündən, bu, tamam ağlamalı,*
*Hamı vermiş fərəsi-nəfsə lücam, ağlamalı,*
*Xasü am ağlamalı, püxtərü xam ağlamalı!*
*Bunu inkar eləyən mötərizan gülməlidir!*

*Rəng bu dəhrdə təmkin eləmişdir bəşəri,*
*Gəlməz heç guşədən aləmdə ədalət xəbəri,*
*Al da tətbiq elə bir "Timon Afinli" əsəri,*
*Gör Şekspir nə deyir, hikmətin alipədəri:*
*Rəngdir, rəng-deyir, -xilqətin ancaq səməri,*
*Sarı bir rəngə boyanmış bu cahan, gülməlidir!*

*Rəngi anlatdı mənə təcrübələr çox əyyam,*
*Nerəyə baxdım isə, rəng göründü mənə tam,*
*Bircə misrada qoyub Xacə bütün bəhsə xitam:*
*"Hər kəsi ruzi-behi mitələbəd əz əyyam".*
*Cam doldur mənə, ey saqiyi-şəngül, mənə cam,*
*Mənü sən gülməliyiz, piri cavan gülməlidir!*
*(9, s.36-37).*

Doğrudan da, insan həyatı və onun dünyada varlığı, dünyanın varlığı və onun Kainatda mövcudluğu "rənglər"dir. Onun "rənglər fəlsəfəsi"ni iki yöndən izah edənlər də vardır: 1. Dünya fanidir, həyat özü də əhəmiyyətsiz zərrədir; 2.Yalnız ölüm haqdır, həyat isə rənglərdən ibarətdir (4, s.16).

Əlbəttə, bu "rənglər"in fəlsəfəsini ilahiləşdirmək də, onu təbiətlə bağlı şəkildə izah etmək də mümkündür. Məsələn, Füzuli üçün "rənglər" ilahi xarakter daşıyırdı ki, Mənsur onu da tamamilə inkar etməmişdir. Üstəlik, Füzulinin "Pənbeyi-dağі-cünun içrə nihandır bədənim" qəzəlinə yazdığı "Təxmis"də Mənsurun fəlsəfi romantik düşüncələri öz əksini tapmışdır:

*Eşq hər qəlbi-siyahə məhək olmaz, ey dil,*
*Tutiyi-natiqə insan demək olmaz, ey dil,*
*Eşq sirrin çocuğa söyləmək olmaz, ey dil,*
*"Canı canan diləmiş, verməmək olmaz ey dil,*
*Nə niza eyləyim, ol nə sənindir, nə mənim".*

*Kimi azadədi zənciri-cünun tövqindən,*
*Bixəbər suzi-ciyərididə könül zövqindən,*
*Mən xoşam paralənə qəlbim əgər ovqindən,*
*"Daş dələr ahim oxu şəhdi-ləbin şövqindən,*
*Nola zənbur evinə bənzəsə beytül-həzənim".*

*Təni-naçiz ki ruh aləminə alətdir,*
*Yaxalım eşq oduna, ruhə bu bir rahətdir,*
*Oxlaqın dəlsə, əgər sinəmizi, rəhmətdir,*
*"Tövqi-zənciri-cünun daireyi-dəvlətdir,*
*Nə rəva kim, məni ondan çıxara zəfi-tənim"...*

*Demə, Mənsur ki, həp nalədürür göftarın,*
*Nalədən başqa nə göftarı olar bimarın?*
*Eşqə sərf eylə, könül, cümlə təvanın, varın,*
*"Edəməm tərk, Füzuli, səri-kuyin yarın",*
*Nə qədər zülm yetirsə, mənə xoşdur vətənim*
*(9, s.21).*

"Mürgi-can olmuşsa" şeirində də romantik duyğularını ifadə edən Mənsur yazırdı ki, milli mücadilə yolunda cisminin yanması onu qorxutmur. Çünki könülündəki ümidlərin doğrulması üçün yas tutmaq deyil, mübarizə aparıb qalib gəlmək lazımdır. Bunun üçün də məhbus olan biri bunun yazsını tutmaq əvəzinə xəyalında canlandırdı azadlıq üçün səbrli olub, fürsət gözləməlidir. O, yazır:

*Mürği-can olmuşsa dəmi-dəhridunə paybənd,*
*Yansa da cismim qəzanın odlarına çün səpənd.*
*Xatirimdən sanma məhv olsun həvayi-aşiyan,*
*Ol həvəslə bəslərəm könlümdə ümmidi-bülənd.*
*Təlxikam olmam cahan zəhrindən əsla yas ilə*
*Tutiyi-təbim bulur ümmid ilə minqarə kənd.*
*Damə bənd olmuşlara təşviş verməz fayidə,*
*Seyd boynundan təlaş etməklə açılmaz kəmənd.*
*Aşiqi-hüşyar vəsli-yarə fürsətçi olar,*
*Səbr lazım hər qədər əğyardən yetsə gəzənd.*
*Vardır, zənnimcə, hər məhbusə ümmidi-xilas,*
*Cahilanə olmasa öz nəfsinin qeydinə bənd*
*(9, s.22).*

Onun "Milli nəğmə"sində isə Türk milləti və İslam ümməti üçün romantik duyğuları, diləkləri öz əksini tapmışdır. O, ümid edirdi ki, Allahın yar və yardımçılığı ilə Türk-İslam millətləri yenidən diriliş tapıb, dünyada bir rahat dövrə qədəm qoyacaqlar:

*Ya Rəbb, öz lütfünü kəsmə millətdən!*
*Lütf qıl qurtaraq çəngi-zillətdən!*
*Bu möhlik yanğından saxla İslamı!*
*Etmə bizi məhrum feyzü rəhmətdən!*
*Uyduq əzəldən biz bəstəri-nazə,*
*Qoymadıq uraq fikrə şirazə,*
*Fikirlər dağıldı, etdi əndazə,*
*Cümlə xoşnud olduq xabi-rahətdən!...*
*Ey olan xadimi-elmü məarif,*
*Etmə diriğ hər qədr olsa məsarif,*
*Xeyir iş görən edər xeyrə təsadüf,*
*Haqq da razı olar əhli-qeyrətdən!*
*(9, s.28).*

Mənsur "Qan" şeirində də yazırdı ki, dünya bir mücadilə meydanıdır. O, millətlər bu dünyada öz varlıqlarını ortaya qoya biləcək, ya da qoruyub saxlayacaqdır ki, həmin millətlər mübarizə meydanından geri çəkilməyib daim zümətə qarşı vuruşacaqlar:

*Bir əsr ki, yer səhnəsidir qan ilə əlvan,*
*Bir vəqt ki, övzainə heyran olur, insan,*
*Bir gün ki, baxan hər tərəfə qan görəcək, qan,*
*Qarşı duruyor zülmət ilə bədri-dirəxşan,*
*Qan tökməyə, can verməyə amadədir hər an,*
*Hər kəs ki, hüququn düşünər, rütbəsin anlar,*
*Hər kəs eşidər haq səsini, haq sözün anlar.*

*Bir əsr ki, çarpışmaqdadır nur ilə zülmət,*
*Bir vəqt ki, məzlumlər almış ələ fürsət,*
*Bir gün ki, tutub yer üzünü həşrü qiyamət,*
*Sən, ey əzilən, sən də oyan, sən də qiyam et!*
*Görsün də səni, xövf eləsin əhli-xəyanət,*
*Çıx ərseyi-meydanə çapuq, əldə silahın,*
*Məzlumlərə hami olan Tanrı pənahın!*
*(9, s.29).*

O, "Yəs və təəssür" şeirində isə daha çox insan azadlığını tərənnüm etməyə çalışmışdır. Əlbəttə, buradakı insan azadlığı Qərbdə formalaşan liberal insan baxışı deyil. Onun baxışlarındakı azad insan insanlığın nə olduğunu anlayan biridir. O, yazırdı:

*Dedim azad olaraq şad olalım,*
*Qoymadı xalq ki azad olalım.*
*Dedim izlal keçər, ərzi-cəmal*
*Edər ülfət günəşi, xoş olu hal.*
*Ah, nə oldu o gözəl amalım?*
*Nə imiş bəklədiyim izlalım?*
*Piç-dər-piçdir övzai-cahan,*
*Öylə məxluq ki ağlım heyran.*
*Dəsti-ədnayə düşüb rişteyi-kar,*
*Atıb insanlığını xurdü kübar.*
*Hamı ənam arayır mur kimi,*
*Toplanır şirniyə zənbur kimi.*
*Bu isə xalqdə ehrazi-əməl,*
*Haldan bədtər olar müstəqbəl.*
*Xain əllərdə bu mənfur həyat,*
*Sən gəl, ey mayeyi-təxlisi-məmat*
*(9, s.30).*

Onun "Naz et" şeirində "azad insan"ın özünü necə ifadə etməsi diqqəti çəkir. O, romantik duyğulara da qapılaraq düşünürdü ki, sevgilisinə naz edənin "nazı"nın özündə özünü ifadə ya da özünü təsdiq məsələsi var:

*İnsanlar hamı görmədiyi aləmin istər,*
*Sağlam ürəyin xəstə sanıb mərhəmin istər,*
*Nəfsi-həvəsiçün səni yox, həmdəmin istər,*
*Hər kəs özün istər deyərəm, xoş dəmin istər,*
*Mən istəmərəm vəslivi, könlüm qəmin istər...*
*Mən söyləmərəm cövrü cəfavı mənə az et,*
*Naz et mənə, ey sevgili yarım, mənə naz et!*

*Eşqindir əzəldən yaradan kövnü məkanı,*
*Dünya denilən əski binayə odu bani,*
*Kibrində, qürurunda rümuzati-məani,*
*Şairlərə cövrün veriyor təhi-rəvani,*
*Mənsurun, əya tanrısı, ey sevgili canı!..*
*Yax qəlbimi hicranın ilə, təbimi saz et,*
*Naz et mənə, ey sevgili yarım, mənə naz et!*
*(9, s.40).*

Mənsurun milli maarifçiliyi və fəlsəfi romantizmi özündə əks etdirən dünyagörüşünün zəngin, özünəməxsus olması şübhəsizdir. O, dünyanı və onda yaşayanları yalnız maddi-fiziki anlamda deyil, eyni zamanda mənəvi-psixoloji olaraq da görüb, bütün bunları dəyərləndirməyə çalışmışdır. Hər bir xalqın maarifçiliyi nə qədər bəşəri olursa-olsun, burada milli ruhda öz əksini tapır. Mənsurun maarifçiliyindəki millilik onun türklüyündə. Türk dünyagörüşünə bağlılıqda büruzə vermişdi. İlk baxışda, onun "rənglər" fəlsəfəsinin dünyaya bağlılıq məsələsində bəlli dərəcədə aqnostik xarakter daşısa da, ancaq bütövlükdə həqiqətçilik, həyat fəlsəfəsi də özünü ortaya qoymaqdadır. Çünki Türk dünyagörüşü, Türk fəlsəfəsi qədərçilikdən, xəyalçılıqdan daha çox həqiqətçi və tərəqqiçi yol izləmişdir. Mənsur da bir Türk aydını kimi, müəyyən qədər dünyanın və insanın yaşamında "rənglər"i görməklə yanaşı, bütün hallarda mövcudluq halında həqiqətçi və tərəqqiçi olmağı da əhəmiyyətli hesab etmişdir.

**İctimai-siyasi görüşləri.**

S.Mənsur hələ gənc yaşlarında qələmə aldığı şeirlərində yazırdı ki, millətin nicatı xalqın öz əlindədir. O, üzünü millət rəislərinə tutub deyirdi ki, "qardaşı-qardaşdan" ayırmayın, əksinə milli birliyə çalışın. Mənsur yazırdı:

*Bir gün səni gördüm neçə zənciri-əsarət*
*Piçidələmiş, etdirər üdvanə itaət.*
*Qardaş, - deyərək onlaı imdadə çağırdım,*
*Qardaş dediyin gəldi də zəcirini qırdın.*
*Qırdın? Sən özünmü? Niyə bəs gəlməmiş əhrar*
*Qurtarmaq əsarətdən olurdu sənə düşvar?*
*Kimdin, nə idin, şimdi nə oldun, bilir aləm,*
*"Xırs ilə palıd" söhbətdir eyni-mücəssəm.*
*Tohmiq eləmiş rütbə səni, vəh necə təhmiq,*
*Heç zaiqə yox etdiyini qılmağa tədqiq.*
*İmdadına gəlsin çağır əbnayi-cəhənnəm,*
*İblisi-dəni zümrəsisən çünki özün həm*
*(9, s.29).*

Yalançı "millətpərəstlər"i tənqid edən Mənsura görə, millətin həqiqi aydınlarından milli ideoloq Məhəmməd Əmin Rəsulzadə

"Açıq söz" qəzetində millətin maraqlarını müdafiə etməyə, onun ən ibtidai həqiqətlərini anlatmağa çalışdığı bir zamanda, bəzi milyonçular isə "Nicat" maarif cəmiyyətinin rəhbərliyinin seçilməsi ilə bağlı olan seçkiləri öz xeyirlərinə həll edirlər: "Bu əhvalatın hələ də dalı üzülməyəcək, "millətpərəstliyimiz" öz qaydası ilə gedəcəkdir" (9, s.166). O, yalançı millətpərəstlər kimi, yalançı intelligentləri də tənqid etmiş, onların meşşan xarakteri, qumara, yüngül həyata meyli mənfi xüsusiyyətləri ifşa olunur (9, s.50).

Dini sferadakı problemlərə daha realist mövqedən yanaşan Mənsura görə, müsəlmanların geridə qalmasının onların bir-birinə paxıllıq etmələri, İslamın əsil mahiyyətindən uzaqlaşmaları, məzhəbpərəst olmaları və sairədir. Onun fikrincə, din xadimlərinin əksəriyyəti heç vaxt İslam dinini müsəlmanlara olduğu kimi çatdırmamışlar. Bu baxımdan, onun əsas tənqid hədəfi İslam dini daxilində yaranmış məzhəblər və həmin məzhəbləri təbliğ edən din xadimləri olmuşdur. Çünki riyakar din başçılarının əməlləri sayəsində məzhəblər artıq İslamın bir hissəsinə çevrilmişdir. O, yazırdı:

*İslam elinin priü cavan canıdu məzhəb,*
*Dil gülşəninin qönçeyi-xəndanıdu məzhəb,*
*Gülzari-tənin mürği-xoşəlhanıdu məzhəb,*
*Qorxma, hamının canıdu, cananıdu məzhəb,*
*Ehkami-xuda, məniyi-Quran unudulmaz.*
*(9, s.26).*

O, şeirlərində müsəlmanların nədən İslamın mahiyyətindən xəbərsiz olmasının və ruhanilərdən uzaq durmasının mənasını göstərə bilmişdir. Ona görə, İslamın mahiyyətini müsəlmanlardan gizləyən, onlara yanlış yol göstərənlər məhz ikiüzlü ruhanilərdir. Mərsiyəxanın dilindən Mənsur yazırdı ki, mey içən, bəng çəkən, gündə piyan olan odur, bundan başqalarına nə var:

*İndi ki, milləti-İslam sevirmiş yalanı,*
*Təpədən dırnağacan kizbü yalanəm sənə nə?*
*Bəs qoyur Mirzə Həsən rumkanı əmmaməsinə,*
*Dinməyirsən, deyirəm gündə piyanəm, sənə nə?*
*(9, s.48).*

O, yazırdı ki, ramazanda oruc tutanlar, namaz qılanlar bunun müqabilində cənnətdəki hurilərə, qılmanlara ümid etdikləri halda, ruhanilər bu dünyada yeyir-içir və eyş-işrətlə məşğul olurlar:

*Hər növ fırıldaqla dolannam on bir ay ildə,*
*Mahi-ramazanda düşərəm ayrıca dildə,*
*Həm mahi-məhərrəmdə "Hüseyn vay" bu dildə,*
*Bir rövzəpəz ollam, mənə hörmət edər el də,*
*Fikrim budu, ey "Tuti" ki hər yan mənim olsun!*
*Gəldi ramazan, ərseyi-meydan mənim olsun!*
*(9, s.60).*

"Bir möminin avropalıya xitabı" satirik şeirində isə Mənsur müsəlmanların hələ də texnikadan və əsrin digər yeniliklərindən uzaq qalmasını tənqid edirdi. Belə ki, avropalılar dünyəvi elmləri öyrənib müxtəlif sənətlərdə ucaldıqları, dünyada imkanlarını artırıb cahcəlal içində yaşadıqları halda, müsəlman millətləri bir bit yuvası və köhnə yorğanla kifayətlənirlər (3, s.683). Bununla da, onlar bu dünyada nə qədər əziyyət çəksələr, axirətdə huri və qılmanlarla kef edəcəklərini düşünürlər. Odur ki, müsəlmanlar avropalılar kimi elmə yiyələnib yeni texnikalar icad etməyə lüzum görmürlər. O, müsəlmanın dilindən avropalıya deyir:

*Uydurma dərin ağlını vəzi-ülaməyə,*
*Bir saatini boş yerə sən vermə fənayə,*
*Tap texnikanı, padşah ol ərzə səmayə,*
*Bul, istər isən getməyə yol ulduza, Ayə,*
*Sal elm yolunda başını dərdə, bəlayə,*
*Məruzə oxu texnikalardan cühaləyə,*
*Lazım deyil, əlbəttə, bular biz üqəlayə.*
*Beş gün bu cahanda quru bir nam mənə bəsdir,*
*Üqabə isə cənnəti-rizvan mənə bəsdir...*
*(9, s.79-80).*

Ona görə, İslamın adından danışan ruhanilər minbərdə başı şapkalıları söydükləri halda, xəlvətdə onlara yalvarırlar. Ancaq söz kimsəsizə, yetimə yardımdan düşəndə onlara əl tutmaq əvəzinə təhqir edirlər. O, yazırdı ki, xüsusilə də, bayram günlərində ac-yalavac müsəlmanlar heç kimin yadına düşmür (9, s.164).

S.Mənsur Azərbaycan Cümhuriyyəti dövründə yazdığı şeirlərində türklüyün, islamlığın müdafiəçisi kimi çıxış etmişdir. O, Cümhuriyyət dövründə qələmə aldığı ""Vahid" Rusiyaya ithaf" şeirində göstərirdi ki, çar Rusiyasının müstəmləkəçiliyindən qurtulan xalqlar üçün "vahid Rusiya" anlayışı bitmişdir. Mənsura görə, artıq Rusiya elə viran olub ki, onun

abad olması, ya da abad etmək üçün bir ustadın tapılması mümkün deyildir. O, yazırdı:

*Niyə dağlar gözünü tək bizim Azərbaycan?*
*"Vahid"in aləmə salmış yenə fəryadü fəğan,*
*Rusların da daha lap zəhlələri getmiş, inan,*
*Dərdinə çarə qılan bir quru fəryad olmaz,*
*Quru fəryadilə Rusiyyə də abad olmaz*
*(7, s.21).*

Səməd Mənsur birmənalı şəkildə Azərbaycanın müstəqil varlığından tərəf olub, Rusiyanın yenidən onu işğal etməsinə qarşı çıxmışdı. O, "Qaçmaq günüdür" şeirində də artıq bu torpaqların yenidən əzəli sahiblərinə – Azərbaycan türklərinə, azərbaycanlılara qayıtmasına sevinir, bu yolda böyük işlər görən Türk ordusunu alqışlayırdı. Mənsur yazırdı ki, artıq bu torpaqların sahibi ruslar olmadığı kimi ingilislərlə ermənilər də ola bilməyəcəklər:

*Top nərəsi, qurşun səsi, at kişnəməsindən*
*Göylər dağılır, evlər uçar ğülğüləsindən,*
*Türk ordusu buysa ki, onun nərə səsindən,*
*Aləm dağılır, vaz keç, hökumət həvəsindən,*
*Qaçmaq günüdür, ingilis, osman gəliyor, arş,*
*Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş.*

*Derdim, nə Bakı, Dərbənd, Dağıstan sənin olsun,*
*Tiflis də sənin, Qars da sənin, Van sənin olsun.*
*"Hayrıq" olasan, cümlə hayastan sənin olsun,*
*Türk qoymadı "əfsus" bir avudan sənin olsun,*
*Qaçmaq günüdür, ingilis, osman gəliyor, arş,*
*Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş*
*(7, s.28-29).*

O, "Olacaqmış" şeirində isə rus bolşeviklərin, erməni daşnakların Azərbaycanda törətdiyi qətliamları qələmə almışdır:

*Axdırdığın, ay bolşevik, ol qan səni boğsun,*
*Pulsuz, pinəsiz, içdigin şanpan səni boğsun,*
*Pislik niyə etdin, a Şaumyan, səni boğsun,*
*İndi quvan xakilə yeksan olacaqmış,*
*Yarəb, nə bilim bir, belə dövran olacaqmış*
*(7, s.49).*

Sadəcə, Cümhuriyyət dövründə onu narahat edən bir tərəfdən Rusiyanın, o biri tərəfdən Ermənistanın Azərbaycana qarşı savaş açdığı dövrdə milli birliyin tam saxlana bilməməsi idi. O, "Firqələrə" şeirində yazırdı ki, Azərbaycanın müstəqilliyinin təhlükə altında olduğu bir dövrdə yerli bolşeviklər, menşeviklər, eserler, ittihadçılar və başqaları milli birliyə əngəl olurlar:

*Yenə də idarəyi-məmləkəti,belə getsə ki, məddi-nəzərdədir,*
*Düzələr, demə, işimiz bizim, görünür ki, eyni xətərdədir.*
*Yenə Zəngəzur ara erməni kəsiyor da ümum cəmaəti,*
*Yenə düşmənin topu ev yıxır, yenə güllələr bu ciyərdədir.*
*Hələ də ayılmadı firqələr, bir olub da dəf edə düşməni,*
*Biri portfel arayır fəqət, biri fikri-sim ilə zərdədir.*
*Biri bolşevik, biri menşevik, biri eser, ol biri bitərəf,*
*Nə bilim nələr, nə bilim nələr, nə bilim ki, iş bu nələrdədir.*
*(7, s.22).*

Sovet Rusiyası təhlükəsi yaxınlaşdıqca, dünənə qədər daha çox müstəqil Cümhuriyyətdən yana olanların, türkçülüyü müdafiə edənlərin bəzilərinin siyasi mövqelərini dəyişmələrini, ya da özlərini bitərəf elan etmələrini tənqid edən Mənsura görə, dövlətin, vətənin bu çətin günlərində əsil mübarizə insanları milli yoldan bir addım da olsun geri çəkilmirlər. O, yazırdı:

*Nə qədər ki, firqələrin işi böylədir ki, bəd nəzərdədir,*
*Vətəni xilas məhaldır, vətən artıq indi xətərdədir.*
*Biri gündə bir neçə rəng alır göz önündə buqələmun kimi,*
*Dolanır gəda kimi hər zaman, bir gəh bu dər, biri gəh o dərdədir*
*Biri nerdən isə vəkil olub, bizi qeyrə satmağa qul kimi*
*Gecə-gündüz işləyir, hər zaman gözü leyk sim ilə zərdədir.*
*Biri bitərəf qoyub adını, özü milyonerlərə yar olub,*
*Nə məramı var, nə məqsədi, həmi zir, həm də zəbərdədir.*
*Yanır iştə bir neçə şəxslər, niyə tabei onların azalıb,*
*Bu səbəbilə, heyf, iş aşmayır, hamı karübari-zərərdədir.*
*Biri keçmiş işləri birəbir unudub da, böylecə əyləşib,*
*Nə bu hal-hazıra baxmayır, nə bilim ki, fikri nələrdədir.*
*(7, s.23).*

27 aprel işğalından sonra da türklük, islamlıq yolundan əsasən kənara çıxmayan, ancaq dövrün kommunizm şərtlərinə də uyğunlaşmağa məcbur qalan Mənsur inanırdı ki,

N.Nərimanovun Azərbaycana gəlişindən sonra müsbət anlamda dəyişikliklər baş verəcək, sönük ürəklərdə nur saçıb, xalqı ağ günə çıxaracaq:

*Sönük ürəklərə verdin vürudunla sürur,*
*Demək olar ki, qaranlıq sərayə saçdın nur.*
*Üzündə hər kişi bir ibtisam göstəriyor,*
*Gözündə hər sənəmin bir nişat pək məxmur.*
*Səhər-səhər o kiçik quşların da nəğmələri,*
*Bəşarət anlaşıdar sanki cümləsi məsrur.*
*Könüllər oldu bütün iztirabdan azad,*
*Sıxıldılar daha da fazla sahiban-qürur.*
*Əvət, günəş görərək tazə gül açar, sevinər,*
*Zavallı şəbpərələr nurdən olar məstur.*
*Nə səndən, indi, əzəldə əsərdi, titrər idi,*
*Səriri-səltənəti harisani-naməşhur.*
*Yetimlər sevinər haminin vürudi ilə,*
*Ləimlər acıyar qarşı dursa ədl ilə zur.*
*(9, s.33).*

O, "Beynəlmiləliyyət" şeirində müəyyən qədər sosial-demokrat, kommunizm ideyalarına inam bəsləmişdir:

*Qalx, ey əli min dürlü qabarla qabaran ər!*
*Əzgin əlivin sövlətini aləmə göstər!*
*İllərcə səni qul edəni məhv edəcəksən*
*Hər bir bəşəri kəndinə bilməklə bərabər!*
*Səs çıxmayacaq, yaxşı demişlər ki, tək əldən,*
*Dağlar duramaz, cümlə bəşər olsa bərabər.*
*Birlik, yenə birlik demiş ərbabi-təsəvvür,*
*Beynəlmiləliyyət, ucalıq, aləmi-əkbər!*
*Beynəlmiləliyyətlə dönər cənnətə dünya,*
*Dünyayə işıqlar saçar ol bədri-münəvvər.*
*(9, s.34).*

Ancaq ümumilikdə, Sovet dövründə Mənsur əsil millətpərvər kimi, yalançı "proletar mədəniyyəti"ndən uzaq duraraq türklüyünü müdafiə etmiş və onu məhv etmək istəyən bolşeviklərə qarşı çıxmışdı. Bu baxımdan Mənsurun həmin dövrdə yaşamış Məşədi İmaməlizadə Azərə yazdığı bir şeir diqqətəlayiqdir:

*Getdi əldən o keçən sevməli günlər, Azər,*
*Yaxıyor indi qəmli könlümü azər, Azər!*
*Mən ki dərvişməzacəm , mənə mənsəb nə gərək,*
*Mənsəbə, məsnədə gülməzmi qələndər, Azər!*
*Hanı ol gün ki xəyal aləmin tair idim,*
*Yeddi əflakıma övrəng idi sağər, Azər!*
*Şimdi ki mərdümi-çeşmin kimi bir guşənişin,*
*Sanki çavuş ədəmi-kəndimə rəhbər, Azər!*
*Gah heyvan kimi peyvəstə yeməkdir fikrim,*
*Zövqi-nabaliğimə süfrədü dilbər, Azər!*
*Türklüyün varlığı qeyrə nə böyük qorxuymuş –*
*Dost-düşmən onu məhv etməyi istər, Azər!*
*(9, s.38).*

Mənsur "O nədir?" şeirində də sovetlərin komminizmini açıq şəkildə olmasa da, dolayısıyla tənqid etmişdir:

*Klublardır ayda qırx gün bağlanır,*
*Qulluqçusu həftədə bir yağlanır,*
*"Kommunxoz"dur, qapısında ağlanır,*
*Kənd bangıdır, "yox"dan başqa sözü yox...*
*"Azteeso"dur, dəftəri çox, işi az,*
*"Narkomsabes", "sabah gəl"i qurtarmaz,*
*"Narkompros" cavab verməz, yüz min yaz,*
*Kooperativdir, qışda getsək, buzu yox.*
*(9, s.90-91).*

Sovet sosialist quruluşunun dəbdəbəli ad-abreviaturlar arxasında gizlədilən yalançı, saxta simasını verən (2, s.50) şair ölkə rəhbərlərinin əsil simasızlıqlarını yaratmaqdan da çəkinmirdi:

*Mirzoyandır, alov yağır gözündən,*
*Mirbəşirdir, məna çıxmır sözündən,*
*Qəzənfərdir, qorxar özü-özündən,*
*Söz soran aşığa Allah yar olsun.*

Mənsurun mövcud sosial-siyasi gerçəkliyə ən sərt reaksiyası "Bacıoğlunun dayıya ərizəsi" və "Dayının bacıoğluya cavabı"dır (1925). Öncə, bacıoğlu "ərizə"sində yazır:

*Ay dayı, gəl bölüşək hər nə ki var vəlvələsiz,*
*Mən cəsarətsiz uşaq, sən kələmərd hövsələsiz.*
*Yer mənim, lehmə mənim, vışka mənim, neft sənin,*
*Beləliklə düzələr müşkül işi hər kəsənin.*
*Əmrü fərman sənin olsun, onun icrası mənim,*
*Hər şeyin nəfi sənin, davası, qovğası mənim.*
*Can dayı, səndən ufaq bir diləyim var mənim,*
*Mən ölüm, sanma ki, başqa kələyim var mənim.*
*Mənə bir avtomobil, bir gözəl ev, bir kabinet*
*Ver ki, daim eləyim əmrinə qul tək xidmət.*
*Bizim el, qorxma, yatıbdır, yeri rahatdır ona,*
*Ona gəl dəyməyinən, bir yekə minnətdir ona.*
*(9, s.88).*

Bu "ərizə"yə cavab olaraq "dayı" yazırdı:

*Bacıoğlu, a qırışmal, bu nə sözdür, nə kələk?*
*Aramızda, a gədə, "sən" nə demək, "mən" nə demək?*
*...Naəlac oldum əzəldən sənə tapşırdım işi,*
*Çaşaraq yoxsa sanırsan özünü sən də kişi?*

*...Əbləh oğlu, səni qoydum ora huşyar olasan,*
*Tutasan göz qabağın, bir uca divar olasan.*
*Arxada mən işimi sazlayım, əncama salım,*
*Azəri türklərini qafil edib damə salım.*
*...Sən özün, varü yoxun, əhlü əyalın da mənim.*
*Baxışın, tərpənişin, fikrü xəyalın da mənim.*
*Adə russan, malorus, ermənisən, sarsaq adam,*
*Səni millət sanaraq qeydinə birzərrə qalam?*
*Sən unutma ki, mənim bəndeyi-fərmanımsan,*
*Əmrimə etsən itaət, gözəl oğlanımsan.*
*Sözümə baxmasan, onda çəkərəm Moskvaya,*
*Səni də bənd edərəm adı görünməz yuvaya*
*(9, s.89).*

Bütün bunlar onu göstərir ki, Mənsurun əsərləri o zaman olduğu kimi, azırda da aktual olaraq qalmaqdadır. Bu, xüsusilə islamlığa, türklüyə münasibətdə özünü göstərməkdədir.

S.Mənsur yaxşı görürdü ki, yeni kommunist quruluşla çarlıq Rusiyası arasında mahiyyətcə fərq yoxdur. Çünki hər ikisi imperiya xislətli olub xalqları müstəmləkə halında idarə edirdi. Xüsusən də, Türk-İslam xalqlaına münasibət hər iki imperiya da daha amansız olmuş, bundan da ən çox zərər çəkən millətlərdən biri Azərbaycan türkləri olmuşdur. O, yazırdı:

*Gərçi bizlər elədik qibleyi-aləm tərkin,*
*Təzədən xan, bəy, ağa sizdə də var, bizdə də var.*
*Müstəbidlik başərin mayeyi-zatində imiş,*
*Qan içən Sümri-dağa sizdə də var, bizdə də var.*
*Derlər: "Ərzi-bəşər axır olacaqdır cənnət",*
*Böylə birzənni-xəta sizdə də var, bizdə də var.*
*(9, s.41).*

Gələcəyə nikbin baxan Mənsur haqq-ədalətin qələbəsinə inanaraq "Oğlum Əhməd Tofiqə vəsiyyətim" (1, s.342) şeirində yazırdı:

*Bizim də ölkədə, Əhməd, gələr bir öylə zaman,*
*Hüquqa malik olar millət, gülər vətənim.*
*Hüquq! hüquq!.. Nə gözəl şey!.. Yetişməz isə əlim,*
*Mən ölmüş olsam, hüquqa həsrətimi,*
*Qızıl qüyuddə mənən çəkən əziyyətimi*
*O gün məzarıma qoş! Sanma bir ovuc xakim,*
*O gün vücudunu gözlər o xaki-qəmnakim.*
*Qoşub məzarimə ver, Əhmədim, başarətini,*
*Duyar qübarım, inan, giryeyi-səadətini!.*
*(9, s.42).*

O, "Övladıma vəsiyyətlərim"də yazırdı: "Bu, tarixi heç təyin edilməyən əski dünyaya milyard-milyard insanlar gəlib yaşamış və ölmüşlərdir. Bunların içində milyon-milyon canilər, xainlər, qatillər, oğrular yaşamışlardır. Eyni zamanda milyonlar ilə də mələk xislətli, pak vicdanlı insanlar da bulunmuşlardır. İndi baxsanız, dünyada nam-nişan qalmışsa, həpsi vicdanlı taqımın içindən çıxan ərbabi-hünərdən qalmışdır. Milyonlarla yaşamış alçaqlardan isə heç bir nişan aləmdə qalmamışdır" (9, s.220). Bu sözlər şairin öz həyatını həm də bir cəmiyyət filosofu kimi yaşamış olduğunu göstərir. Mənsur davam edərək yazırdı: "Bu zəmanə alçaqlıq zamanı, ayaqöpənlər, vicdansızlar meydanıdır. Bu zəmanədə hər kəs vicdanını satmaqla yaşayır. Vicdanlar alqı-satqı malı olmuşdur. Üzlərdən həyalar mədum olmuşlar. İnsaf və mürüvvətdən əsər qalmamışdır. Lakin mən, atanız vicdanımı hifz etdim. Ac da qaldım, təməllüq etmədim. Kimsənin qabağında kiçilmədim. Üzümün həyasını, qəlbimin insafını heç bir təhlükə qarşısında qaib etmədim" (9, s.221).

S.Mənsurdan öncə də bütün bunlar var idi, indi də var və dünya mövcud olduğu müddətcə də olacaqdır. Yəni insanoğlu, kişioğlu adlanan canlı, şüurlu varlıqlar üçün bir şeyi edib etməməklə bağlı "olar-olmaz" deyiləcək bir ölçü nisbidir. Belə ki, kimləri üçün "olar", kimlər üçün "olmaz"lar ya da kimlərinə görə də "olar-olmaz"ların uzlaşması ağlabatandır.

## Nəticə

Beləliklə, deyə bilərik ki, Səməd Mənsurun dünyagörüşü fəlsəfi-romantik xarakter daşımış, bəzi halalrda aqnostizmin elementləri öz əksini tamışdır. Hər halda şair-mütəfəkkirin dünyanın və insanın gerçəkliyi məsələsinə baxışları bizə deməyə əsas verir ki, o, tərəddüd içindədir. Hətta, bir çox hallarda o, hər bir şeyin "rəng"dən başqa bir şey olmadığı qənaətindədir. Yəni dünya və onun daxilində baş verənlər, insan və onun xeyir-şər arzuları, sadəcə "rənglər" dünyasıdır. Necə ki, "rənglər" zaman-zaman dəyişir və bu dəyişkənlik əslində gerçəklik və utopik xarakter xarakter daşıyır. İnsan öz nəfsi, marağı, çıxarları üçün bəzən "ağı" qara, bəzən də "qara"nı ağ kimi görür. Bunu çox yaxşı ifadə edən Mənsur həm insanın, həm də cəmiyyətin taleyindəki, yaşamın-

dakı “ağ”, “qara” və sair “rəngləri” ifadə etməyə çalışmışdır. O, görürdü ki, Cümhuriyyət dövründə “turançı”, “türkçü” olanlardan bəziləri, 27 aprel işğalından sonra qatı “bolşevik”, “sosialist”ə çevrilib türklüyün, turançılığın əleyhdarı olurlar. Deməli, şərtlər çərçivəsində elələri tapılır ki, yalnız zahiri anlamda deyil, düşüncə baxımından da “rənglər”ini dəyişirlər. Əslində, bu kimi məsələlərdə qeyri-təbiilik axtarmaq, məna vermək doğru deyildir. Çünki belə hallar hər zaman olmuş, olur və olacaqdır.

**İstifadə olunmuş ədəbiyyat**


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı, "Lider nəşriyyat", 2005
2. Cəfərov Nizami. Səməd Mənsurun poeziyası. Bakı, “Elm və təhsil”, 2017
3. Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı, “Elm və təhsil”, 2020
4. Ələkbərli Nazif. Bir ömrün rəngləri. Bakı, Elm, 2000
5. Əsgərova Yadigar. Səməd Mənsur. Həyat və yaradıcılığı. Bakı, “Zərdabi-Nəşr” MMC, 2019
6. Paşayev Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917) Bakı, “Ziya-Nurlan” NPM, 2004
7. Mənsur Səməd. Birinin bayramı, birinin matəmi. Bakı, Nurlan, 2003
8. Mənsur Səməd: biblioqrafiya / Tərtib edəni M.İbrahimova. Bakı, 2019
9. Mənsur Səməd. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2006
10. Mənsur Səməd. Həpsi rəngdir. Bakı, Nicat, 1993
11. Xəyal Sona. Bakı gülzarının bülbülləri. Bakı, MBM, 2011
12. Salamoğlu Təyyar. Faciəli talelər. Bakı, Elm, 1998


**Rəyçi:** **f.ü.f.d. Mirmüstəqil Ağayev**

**Göndərilib: 26.03.2025** **Qəbul edilib: 09.04.2025**